# Beynəlxalq Astronavtika Konqresinin plenar iclasında əməkdaşlıq və infrastruktur mübadiləsindən danışılıb




Oktyabrın 3-də 74-cü Beynəlxalq Astronavtika Konqresinin "Əməkdaşlıq və infrastruktur" adlı plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, David Tomasın moderatorluğu ilə keçirilən tədbirdə Avstraliya Fəza Agentliyinin baş texnoloqu Aude Viqnelles, Kolorado Universitetinin Astrodinamik Araşdırmalar Mərkəzinin professoru Daniel Şeeres, NASA-nın baş texnoloqu A.C.Çarania, "Əlavə Dəyər Həlləri" şirkətinin kosmik rəhbəri vəzifəsində çalışan Ramon Blanko iştirak ediblər.

Plenar iclasda çıxış edənlər kosmik əlaqələrin daha dərindən öyrənilməsi, eyni zamanda bu sahədə qarşılıqlı əməkdaşlıqdan danışıblar. Beynəlxalq "Artemis" proqramının kəşfetmə missiyaları, kosmik elmlər və rəqəmsal kommersiya şirkətlərinin bu sahənin inkişafı üçün veriləcək dəstəyi haqqında müzakirələr aparılıb. Qeyd edilib ki, rəqəmsal kommersiya şirkətləri rabitə və naviqasiyadan tutmuş mobillik və enerji təchizatına qədər kommersiya xidmətləri sıralamasını təmin etmək niyyətindədir.

Qeyd edək ki, "Artemis 1" "Artemida" proqramı çərçivəsində kosmos uçuşu olan ekipajsız Ay orbiti missiyasıdır. "Orion" kosmik gəmisinin və "Space Launch System" buraxılış vasitəsinin ilk inteqrasiya olunmuş uçuş sınağıdır.

Azərbaycan.- 2023.- 4 oktyabr.- S.5.